# M.F.AXUNDOV ADINA MİLLİ KİTABXANA FONDUNUN ÜMUMİ XARAKTERİSTİKASI

**Ulduz Manafova**
*Kitabxana resursları və informasiya axtarış sistemləri kafedrasının dissertantı*
*Ulduz_xanim@mail.ru*

***M.F.Axundov adına Milli Kitabxana fondunun ümumi xarakteristikası***
***Xülasə:** Məqalədə kitabxana fondunun əsas xarakterik xüsusiyyətləri M.F. Axundov adına Milli Kitabxananın iş təcrübəsi əsasında təhlil edilmişdir. Müvafiq şöbələrin fəaliyyət dinamikası, müxtəlif ədəbiyyatlarla fondun təchizolma mexanizmi konkret faktlarla göstərilmişdir.*
***Общая характеристика Национального библиотечного фонда имени М.F. Ахундова***
***Резюме:** Основными характеристиками библиотечного фонда в статье являются Проанализировано на основе опыта Национальной библиотеки имени М.Ф.Ахундова. Динамика деятельности отделов, механизм обеспечения фонда различной литературой показаны с конкретными фактами.*
***General characteristics of the National Library Fund named after M.F. Akhundov***
***Abstract:** The main characteristics of the library fund are analyzed in the article on the basis of the work experience of the National Library named after M.F.Akhundov. The dynamics of the activities of the departments, the mechanism of providing the fund with various literature are shown with concrete facts.*
***Açar sözlər:** Kitabxana, fond, milli, restavrasiya, komplektləşdirmə*
***Ключевые слова:** библиотека, фонд, национальная, реставрация, приобретение*
***Keywords:** Library, fund, national, restoration, acquisition*

**Giriş.** Fond sözü həqiqi mənada Respublikada XX əsrin əvvəllərində ɪeydana gəlmişdir. Qədimdə bu söz kitabsaxlayıcı mənasını ifadə edirdi. Fonun öyrənilməsi, əsas xüsusiyyətlərinin təhlil edilməsi bilavasitə onun formalaşırılmasına əsaslı şəkildə təsir edir. Məqalədə əsas tədqiqat obyekti M.F.Axunov adına Milli Kitabxananın fondu olduğundan fondun ümumi xarakteristikası da həmin kitabxana əsasında da təhlil etmişik. Qeyd edək ki, kitabxana fondu 00 000 nüsxələrlə sənədləri əhatə edən zəngin bilik xəzinəsi olmaqla minlərlə xucunun əsl mütaliə mənbəyinə verilmiş sərvətdir ki, “Kitabxana işi haqqında” ʌzərbaycan Respublikasının qanununda deyilir: “Kitabxana elmi informasiya, ıədəniyyət, təhsil, tərbiyə müəsisəsi kimi çap əsərlərinin digər informasiya daıyıcılarını toplayıb mühafizə edən, onların ictimai istifadəsini təmin edən, cəniyyətin intellektual mənəvi potensialı inkişafına kömək göstərən sosial institutur.” “Kitabxana işi haqqında” Qanundan məlumdur ki, kitabxana fondunun yaadılması və inkişafı insanlarda elmin, informasiyanın, mədəniyyətin, təhsilin, ərbiyənin formalaşmasının mühüm sahələrindən biri kimi qarşıda durur. Fonun mahiyyətini bilmədən praktiki əhəmiyyətini müəyyən etmək, formalaşdırıl-

ması istiqamətini dəqiqləşdirmək, inkişaf istiqamətlərini konkretləşdirmək qeyrimümkündür. Bu xarakterik xüsusiyyətlərin həllində kitabxana fonduna sistem baxımından yanaşılma mühüm rol oynayır. Sistemli yanaşma fondun əsas keyfiyyətini, əhəmiyyətini, məzmununu, yaranma prinsiplərini, təşkil olunma ünsürlərini xarakterizə etməyə imkan verir.

**Məsələnin qoyuluşu:** Fondu yaradan əsas ünsür sənəddir. (sənəd-qəzet, kitab, jurnal) Kitabxana sistemini sənəd toplusuna görə iki yerə ayırmaq olar: 1. sadə 2. mürəkkəb Sadə sənəd toplusu eyni tipli bir-birinə bənzər sənəd toplusuna (jurnallar, əlyazmalar, normativ standartlar) deyilir. Əgər kitabxana sistemində müxtəlif tipli və çoxlu nüsxəli sənədlər toplusu əhatə edilirsə onda belə sistem mürəkkəb xarakterli hesab olunur. Hər iki halda sənədlərin qarşılıqlı əlaqələri, sistem daxilindəki funksiyaları, fondun quruluşu, məzmunu, əhəmiyyəti nəzərə alınır. Fondun yaranması onun inkişafı kimi eyni zamanda onun mühafizəsi də mədəni inkişafın gedişi prosesi ilə müəyyən edilir. Belə ki, kitabxana fondu mühüm maddi əhəmiyyətə malikdir. Buna görə kitabxanaların əsas vəzifələrindən birini cəmiyyətin kitab sərvətinin mühafizəsi təşkil edir. Formalaşmış kitabxana fondunun mühafizəsi, oxucu marağının ödənilməsinə, kitab təmirinə, cildlənməsinə, nəşrlərin bərpasına sərf ediləcək səmərəsiz əməyin qısaldılması, onların təkrar əldə edilməsinə təsir göstərir. Zəngin kitabxana fondunun mühafizəsi dünya xalqları üçün sosial mədəni əhəmiyyətə malikdir. 1954-cü ildə Haaqada YUNESKO-nun təşəbbüsü ilə çağrılan dövlətlərarası konfrans mədəni sərvətin mühafizəsi sahəsində beynəlxalq müqavilə qəbul etmişdir. Müqaviləyə əsasən digər mədəni sərvətlərlə bərabər kitabxana fondunun məhv edilməsindən, qeyri-qanuni mənimsənmədən qorumaq üçün onun beynəlxalq mühafizəsi nəzərdə tutulur. Beynəlxalq kitabxana cəmiyyətləri, idarələri, ittifaqlarının proqramlarında göstərilir ki, kitabxana fondunun mühafizəsi milli kitabxana mərkəzinin fəaliyyətində ən mühüm problemlərindən biridir. Bu işdə kitabxana fondunun mühafizəsi problemi ilə məşğul olan xarici müəssisələrin əməkdaşlarının fəaliyyətini xüsusi qeyd etmək lazımdır. Onların hazırladıqları tövsiyələr, kitabxana fondunun qorunması və bərpası məsələlərinin həlli üçün optimal istiqamətin seçilməsinə köməklik göstərir. Dünyanın bir çox kitabxanaşünasları əsərlərində keçmiş mədəni irsin varisliyi nöqteyi nəzərindən çıxış edirlər. Engelsin dili ilə desək, elm özündən əvvəlki biliklər məcmusunu əhatə etməklə inkişaf edir. Fondun mühafizəsi düzgün saxlanması, qorunması və zədələnmə faktorlarının aradan qaldırılması ilə mümkündür. Qorunma dedikdə kitabxana fondunun bütövlüyünə zərər verən amillərin profilaktikası və mühafizəsi üzrə kompleks tədbirlər sisteminin həyata keçirilməsi nəzərdə tutulur. Düzgün saxlama dedikdə, optimal fiziki, kimyəvi və bioloji qaydalara əməl etməklə, fondun xüsusi avadanlıqla təchiz olunmuş işıqlı otaqlarda yerləşdirilməsi nəzərdə tutulur. Kitabxana fondu ümumxalq əmlak olduğuna görə onların qorunması müstəqil dövlətin vəzifələrindən biridir. Azərbaycan Respublikasının Konstitusiyası hər bir şəxsin qarşısında dövlət əmlakı-nın qorunması və bu işin möhkəmləndirilməsi vəzifəsini qoyur. Təsadüfi deyil ki, Konstitusiyamızın 40-cı maddəsində deyilir: Hər kəs tarixi mədəniyyətə, irsə hörmətlə yanaşmalı, ona qayğı göstərməli, tarixi və mədəniyyət abidələrini qorumalıdır.



**Məsələnin izahı:** Məqalədə əsas tədqiqat obyekti olaraq M.F.Axundov adına Milli Kitabxananın fondu ümumi şəkildə xarakterizə olunmuşdur. İlk öncə qeyd edək ki, Milli Kitabxana kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və kitabşünaslıq sahəsində aparıcı müəssisə, ölkənin bütün kitabxanaları üçün elmi-metodiki mərkəz, oxuculara kompleks kitabxana-biblioqrafiya, informasiya xidməti göstərmək, kitabxanalararası abonement, milli və tövsiyyə biblioqrafiyası, beynəlxalq və ölkədaxili depozitar mərkəz funksiyalarını yerinə yetirir. Heç təsadüfi deyildir ki, ulu öndərimiz, elm və mədəniyyətə yüksək qiymət verən Heydər Əliyev prezidentliyi müddətində 4 dəfə (1995-3 iyun; 1996-4 mart; 1997-5, 20 noyabr) Milli Kitabxanaya gəlmiş və öz şəxsi kitabxanasından yüzlərlə kitabı kitabxanaya hədiyyə etmişdir. 2004-cü ildə Kitabxanaya Nazirlər Kabinetinin qərarı ilə "Milli Kitabxana" statusu verilmişdir ki, bu da kitabxananın fəaliyyətinə verilən ən yüksək qiymətdir. Milli Kitabxana Azərbaycan Respublikasında kitabxana işi sahəsində dövlət siyasətini həyata keçirən, milli nəşrləri, xarici ölkələrdə nəşr olunmuş Azərbaycan haqqında və Azərbaycan müəlliflərinin əsərlərini, dünya əhəmiyyətli nəşrləri, o cümlədən xarici dillərdə qiymətli və digər məlumat daşıyıcılarını toplayıb mühafizə edən milli mədəniyyət xəzinəsi və dövlət kitabsaxlayıcısıdır. "Kitabxana işi haqqında" və "Nəşriyyat işi haqqında" Azərbaycan Respublikasının Qanunlarına əsasən Milli Kitabxana ölkə ərazisində dərc olunan nəşrlərdən pulsuz məcburi nüsxələr alır və onların əsasında milli mətbuatın arxiv fondunu yaradır. Bunun nəticəsi olaraq 2017-ci ildə kitabxanaya 23271 nüsxə yeni ədəbiyyat daxil olmuşdur. İl ərzində oxucuların sayı 152 069 nəfərə, kitabxanaya gələnlərin sayı isə 191 183 nəfərə çatmışdır.

Milli Kitabxananın şöbələrinin fəaliyyətində son illər xeyli irəliləyişlər və yeniliklər baş vermişdir. 2005-ci ildən nəşriyyatlardan və poliqrafiya müəssisələrindən alınan məcburi nüsxələr əsasında Milli Kitabxananın Çap məhsullarının qeydiyyatı və Milli biblioqrafiya şöbəsi (Kitab palatası) 15 illik fasilədən sonra "Birillik Azərbaycan kitabiyyatı"nın çapını bərpa edərək, respublikamızda dərc olunmuş kitabları əhatə edən bütün buraxılışları çap edilmişdir.

Kitabxananın metodik fəaliyyətində də xeyli işlər görülmüşdür. 60-70-ci illərdə çap olunan, kitabxanalar tərəfindən böyük rəğbətlə qarşılanan "Əlamətdar və tarixi günlər təqvimi"nin nəşri bərpa olunmuşdur. 2008-ci ildən Milli Kitabxanada oxuculara virtual kitab sifarişi imkanı da yaradılmışdır. Yəni internetə çıxışı olan hər bir oxucu yaşayış və yaxud iş yerindən kitabxananın saytındakı "virtual xidmət" bölməsinə daxil olaraq istənilən kitabı sifariş edə bilər və dərhal ona həmin kitabın kitabxanada olub-olmaması barədə məlumat verilir, lazım gəldikdə onu sifariş edir və artıq oxucu kitabxanaya gələrkən kitab rəfdə onu gözləyir. Beləliklə, kitabı kataloqda axtarmaq və sifariş edib gözləməyə ehtiyac qalmır. Əgər oxucunun istədiyi kitab kitabxanada yoxdursa, vaxt itirib gəlməyə ehtiyac qalmır. Bu gün Milli Kitabxana respublikanın bütün kitabxanalarına, eləcə də bütün oxuculara və internet istifadəçilərinə vir-

tual rejimdə metodik xidmət göstərir. Kitabxananın saytında "Metodik xidmət" və "Biblioqrafik sorğu" bölməsi yaradılmışdır. Ölkənin istənilən nöqtəsindən hər bir kitabxana işçisi, müxtəlif oxucular, istifadəçilər müxtəlif sorğularını sayt vasitəsilə Milli Kitabxanaya ünvanlayır və ən qısa müddətdə öz sorğularına cavab ala bilirlər. Milli Kitabxananın hazırladığı materiallar və vəsaitlər kitabxananın saytında yerləşdirilir və nəticədə bütün nəşrlər çap olunmamışdan və yerlərə göndərilməmişdən kitabxanaçıların ixtiyarına verilir. Bu gün elə bir sahə tapılmaz ki, orada kompyuterlərdən, digər informasiya texnologiyalarından istifadə olunmasın. M.F.Axundov adına Milli Kitabxanada bu işə 1999-cu ildən başlanmış və 2000-ci ildə kitabxanada İnternet zalı istifadəyə verilmiş, 2001-ci ildə isə Tədris Mərkəzi yaradılmışdır.

2003-cü ildən kitabxanada avtomatlaşdırılmış idarəetmə sisteminin tətbiqinə başlanmışdır. Sistemin proqram təminatı ABŞ-ın VTLS-kitabxanalar üçün xüsusi avtomatlaşdırılmış proqramlar işləyən təşkilatlar tərəfindən həyata keçirilmişdir. Bura elektron kataloqun tərtibi, elektron kitabxananın təşkili, oxucuların qeydiyyatı, kitab verilişi, kitab fondunun komplektləşdirilməsi, Milli biblioqrafiyanın yaradılması, bütün kitabxana proseslərinin avtomatlaşdırılması modulları daxildir.

2016-cı ildə Azərbaycan musiqisinin dünyada və respublikada geniş miqyaslı təbliğinə nail olmaq məqsədilə Mədəniyyət və Turizm Nazirliyi və Milli Kitabxana tərəfindən "Azərbaycan musiqi irsinin dünyada təbliği" adlı birgə layihə həyata keçirilmişdir. Azərbaycan Milli Kitabxanasının əməkdaşları beynəlxalq musiqi saytı olan "Petruççi Musiqi kitabxanası"nda (www.impls.org) Azərbaycan xalq mahnıları və bəstəkarlarının 300-dən çox musiqi əsərinin notlarını, habelə Azərbaycanın korifey ifaçılarının səs yazılarını mp-3 formatında yerləşdirmişlər. Burada Azərbaycanın Dövlət Himni, "Sarı gəlin", "Qarabağ şikəstəsi" kimi şedevrlərin həm notu, həm də səs yazısı, korifey ifaçılarımızdan ölməz Bülbülün, Xan Şuşinskinin, unudulmaz Rəşid Behbudovun, Lütfiyar İmanovun, Habil Əliyevin və digər görkəmli sənətkarlarımızın ifasında xalq mahnılarımızın və bəstəkar mahnılarımızın lent yazıları yerləşdirilmişdir. Ümumilikdə kitabxana fondu elə seçilib formalaşmalıdır ki, insan biliyinin sistemləşməsinə, biliklərin idarə olunmasına, bilik mənbəyi olan kitablar vasitəsilə insanların mütaliəsinə, tərbiyə, təhsil prosesinə təsir etsin. Milli Kitabxananın 2019-cu ilə dair hesabatlarına istinadən qeyd edə bilərik ki, 2019-cu ildə Milli Kitabxananın fəaliyyətində müsbət irəliləyişlərə nail olunmuşdur.

**2019-cu il üzrə M.F.Axundov adına Milli Kitabxana fondunun ümumi statistik göstəriciləri**

*Cədvəl-1*

| | |
|---|---|
| Üzv olmuş oxucuların sayı | 22 300 nəfər |
| Ümumi oxucuların sayı | 187 348 nəfər |
| Kitab verlişi | 4 537 441 nüsxə |
| Kitab və kitabçaların sayı | 2 394 993 nüsxə |
| Digər sənədlər | 2 221 478 nüsxə |



Belə ki, yuxarıdakı cədvəldən göründüyü kimi 2019-cu ildə Milli Kitabxanaya 22 300 nəfər yeni oxucu üzv yazılmış, ümumilikdə oxucuların sayı 187 348 nəfərə çatmışdır. Oxucu davamiyyəti 339 691 nəfər, kitab verilişi isə 4 537 441 nüsxə olmuşdur. Milli Kitabxananın fondu 4 616 471 nüsxə təşkil edir ki, bunların 2 394 993 nüsxəsi kitab və kitabçalar, 2 221 478 nüsxəsi isə digər sənədlərdir. 2019-cu ildə Milli Kitabxananın fonduna müxtəlif mənbələrdən 27 633 nüsxə ədəbiyyat daxil olmuşdur. Yeni daxil olmuş ədəbiyyatın 16 272 nüsxəsi kitab, 11 361 nüsxəsi isə digər sənədlərdir [10].

**2019-cu il üzrə M.F.Axundov adına Milli Kitabxana fonduna daxil olan ədəbiyyatın dil göstəriciləri**

*Cədvəl-2*

| | |
|---|---|
| Azərbaycan dilində | 14 704 nüsxə |
| Rus dilində | 9 357 nüsxə |
| Digər xarici dillərdə | 3 572 nüsxə |

Yuxarıdakı cədvəldən göründüyü kimi ədəbiyyatın 14 704 nüsxəsi Azərbaycan, 9 357 nüsxəsi rus, 3 572 nüsxəsi isə xarici dillərdə olmuşdur. Yeni ədəbiyyat dərhal kitabxananın saytında "Yeni kitablar" (http://anl.az/yeni.php) bölməsində yerləşdirilmiş və Sərgi zalında "Yeni kitablar" bölməsində əyani şəkildə nümayiş olunmuşdur [10]. İl ərzində fiziki cəhətdən yararsız hala düşmüş, köhnəlmiş və aktuallığını itirmiş 12 228 nüsxə ədəbiyyat silinmişdir ki, bu ədəbiyyatın 11 038 nüsxəsi rus, 1190 nüsxəsi isə Azərbaycan dilində olmuşdur. Milli Tarix muzeyinin fondundan Milli kitabxanaya onun fondlarında olmayan, yaxud da məhdud nüsxədə olan 10 mindən artıq kitab daxil olmuş və həmin ədəbiyyatlar inventarlaşdırılaraq kitabxananın fonduna daxil edilmişdir. Milli Tarix Muzeyindən XIX əsrin ikinci yarısında və XX əsrin əvvəllərində nəşr olunan "Əkinçi" qəzetinin (1875-1877-ci illər) və digər nəşrlərin nadir orijinal nüsxələri də əldə edilərək "Nadir kitablar və kitabxana muzeyi" şöbəsinin fonduna, 173 nüsxə rus dilində olan nəşrlər isə "Azərbaycan ədəbiyyatının arxivi" şöbəsinə təhvil verilmişdir [7].

**Nəticə:** Həmçinin qeyd edək ki, kitabxana fondunun həm "nüvə", həm də "mükəmməl repertuar" növlərinin formalaşmasında oxucu sorğuları və tələbatları mühüm amildir. Oxucu tələbatının öyrənilməsi, elmi ümumiləşdirmələr aparılması, fonda alınacaq çap əsərlərinin və audiovizual materialların, elektron daşıyıcıların müəyyənləşdirilməsi xüsusi əhəmiyyət kəsb edir. Hər şeydən əvvəl, oxucu tələbatını öyrənmək üçün xüsusi araşdırmalar aparılmalı, nəzəri cəhətdən əsaslandırılmalıdır. Sahəvi kitabxanalara nisbətən ümumi kütləvi kitabxanalarda ədəbiyyatın seçilməsi prosesi xüsusilə çətindir. Ümumi (kütləvi) kitabxanaların vəzifəsi olduqca qeyri-müəyyən, mürəkkəb və çoxcəhətli olduğundan, kompleksləşmə işini olduqca çətinləşdirir. Buna görə də ümumi (kütləvi) kitabxanalarda ədəbiyyatın seçilməsində iki istiqamət meydana çıxır. Birinci istiqamət tələbat nəzəriyyəsi istiqamətidir. Ümumi (kütləvi) kitabxana-

lar dövlət müəssisəsi olduğundan dövlət tərəfindən maliyyələşdirilir. Kitabxana əhalinin tələbatını ödəməyə borcludur. Bunun üçün isə daha keyfiyyətli, az vəsait tələb edən layihələr hazırlanmalı, komplektləşdirilərkən ədəbiyyatın elektron daşıyıcılarının miqdarı və məzmunu müəyyənləşdirilməlidir. Şübhəsizdir ki, bu problemin həllində Milli kitabxananın üzərinə daha ciddi məsuliyyət düşür.

**Ədəbiyyat**


1. Azərbaycan Respublikasının "Kitabxana işi haqqında qanun" u.-Bakı,1999.
2. Xələfov, A. Azərbaycanda kitabxana işinin tarixi" Dərslik 3 hissədə. I hissə 2004.
3. Xələfov, A. A Heydər Əliyev və Azərbaycanda kitabxana işi. Bakı: Azərnə°r, 2006.-312s.
4. Xələfov, A. A XXI əsrin əvvəllərində Azərbaycanda kitabxana işinin əsas inkişaf istiqamətləri (mülahizə, təkliflər və proqnozlar). –Bakı, 2006. -106s.
5. Xələfov, A. A, Qurbanov A. Kitabxanaların kompüterləşdirilməsinin əsasları, 2007.-264 s.
6. Xələfov, A. A "Azərbaycanda kitabxana işinin tarixi" Dərslik, II hissə Bakı 2009.-126s.
7. Xələfov, A. A "Azərbaycanda kitabxana işinin tarixi" Dərslik, III hissə Bakı-2010.-352 s.
8. İsmayılov, X.İ Kitabxana-informasiya texnologiyaları:Dərs vəsaiti. Bakı, "Nurlar" nəşriyyat-poliqrafiya mərkəzi, 2009.-312 s.
9. Столяров Ю.Н. Библиотечный фонд: Учебник для библ. фак. ин-тов культуры, ун-тов и пед. вузов. М.: Кн. палата, 2015.-271 с.
10. anl.az


**Rəyçi: b/m S.M.Mustafayeva**